**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS 1.2:2022**

İkinci nəşr
2022

# Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Azərbaycan Respublikasının dövlət standartlarının işlənmə qaydaları

# State system for standardization of Azerbaijan Pubulic. Rules for development states standards of the Republic of Azerbaijan

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS 1.2:2022

©AZSTAND 2022

⚠ Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az

# MÜQƏDDİMƏ

**1.** “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ tərəfindən işlənib hazırlanıb və “Təşkilati, metodoloji və ümumi texniki standartlar” üzrə Texniki Komitə (AZSTAND/TK 37) tərəfindən təqdim edilib.

**2.** Azərbaycan Standartlaşdırma İnstitutunun _01_____aprel___ 2022-ci il tarixli _222323500009______ saylı qərarı ilə TƏSDİQ EDİLMİŞDİR.

**3.** AZS 1.2- 96 “Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Dövlət standartlarının işlənmə qaydaları” dövlət standartının əvəzinə.

**4.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın dövrü yoxlama müddəti 1 ildir.

©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜNDƏRİCAT

1. Tətbiq sahəsi........................................................................................ 1

2. Normativ istinadlar.................................................................................. 1

3. Termin və təriflər..................................................................................... 2

4. Dövlət standartlarının (o cümlədən ilkin dövlət standartlarının)
hazırlanması və razılaşdırılması............................................................. 2

4.1 Dövlət standartları .................................................................................. 2

4.2 İlkin dövlət standartları............................................................................ 4

5. Dövlət standartı layihəsinin ekspertizası................................................. 5

6. Dövlət standartlarının (o cümlədən ilkin dövlət standartlarının)
qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi...................... 6

7. Dövlət standartının dövrü yoxlanması..................................................... 8

8. Dövlət standartlarına dəyişikliklərin edilməsi.......................................... 9

9. Dövlət standartlarının ləğv edilməsi qaydaları........................................ 10

10. Dövlət standartlarının nəşri.................................................................. 11

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi.**
**Azərbaycan Respublikasının dövlət standartlarının**
**işlənmə qaydaları**

**AZS 1.2:2022**

**State system for standardization of Azerbaijan Pubulic**
**Rules for development states standards of the Republic of Azerbaijan**

Tətbiq edilmə tarixi “__01___” “__aprel___2022 -ci il

## 1 TƏTBİQ SAHƏSİ

Bu standart Azərbaycan Respublikasının dövlət standartlarının (o cümlədən ilkin dövlət standartlarının) hazırlanması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişikliklər edilməsi, dövrü yoxlanması, ləğvi və nəşri qaydalarını müəyyən edir.

Bu standartın tələbləri standartlaşdırma prosesində iştirak edən texniki tənzimləmə və standartlaşdırma subyektləri üçün məcburidir.

## 2 NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakı normativ sənədlərə istinad edilmişdir:

AZS 1.0:2022 Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Əsas müddəalar.

AZS 1.5:1996 Azərbaycan Respublikasının texniki tənzimləmə və standartlaşdırma sistemi. Standartların tərtibi, şərhi, rəsmiləşdirilməsi və işarələnməsi qaydaları.

**Qeyd**: Bu standartdan istifadə edərkən cari ilin yanvarın 1-nə tərtib edilmiş kataloq və ya cari ildə dərc edilən müvafiq informasiya göstəriciləri üzrə normativ sənədin qüvvədə olmasının yoxlanılması məqsədəuyğundur. Əgər istinad edilən normativ sənəd əvəz edilibsə (dəyişdirilibsə), onda bu standartın istifadəsi zamanı əvəz edilmiş (dəyişdirilmiş) normativ sənəddən istifadə edilməlidir. İstinad edilən normativ sənəd əvəz edilmədən ləğv edilibsə, onda istinad edilmiş müddəanın bu istinada toxunmayan hissəsi tətbiq edilir.

©AZSTAND –Bütün hüquqlar qorunur

## 3 TERMİN VƏ TƏRİFLƏR

Bu standartda AZS 1.0 üzrə termin və təriflərdən istifadə edilmişdir.

## 4 DÖVLƏT STANDARTLARININ (O CÜMLƏDƏN İLKİN DÖVLƏT STANDARTLARININ) HAZIRLANMASI VƏ RAZILAŞDIRILMASI

### 4.1 Dövlət standartları

**4.1.1** Dövlət standartları standartlaşdırma üzrə milli proqrama və ya təşəbbüs qaydasına müvafiq olaraq işlənilib hazırlanır.

**4.1.2** Dövlət standartının layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmalıdırlar.

**4.1.3** Əsaslandırmada dövlət standartının işlənib hazırlanmasının texniki, iqtisadi, sosial məqsədəuyğunluğu qeyd edilməli, onun texniki reqlamentlə və/və ya beynəlxalq standartla və ya digər sənədlərlə əlaqəsi, sifarişçisi və icraçısı haqqında məlumat verilməlidir.

**4.1.4** Dövlət standartı layihəsi AZS 1.5 dövlət standartının tələblərinə uyğun tərtib edilir.

**4.1.5** Dövlət standartları işlənib hazırlanarkən aşağıdakılar nəzərə alınmalıdır:

- Azərbaycan Respublikasında qüvvədə olan və ya qüvvəyə minməsi nəzərdə tutulan texniki reqlamentlərin tələbləri;
- məlum standartlaşdırma obyektinə və (və ya) aspektinə aid olan elmi-tədqiqat, təcrübə-konstruktor, texnoloji-tədqiqat, layihə işlərinin nəticələri;
- beynəlxalq, regional standartları, normaları, qaydaları, tövsiyələri və beynəlxalq (regional) standartlaşdırma üzrə digər sənədləri, habelə regional texniki reqlamentləri;
- digər ölkələrin mütərəqqi dövlət standartları və texniki reqlamentləri;
- elmin müasir nailiyyətləri haqqında digər məlumatları;
- standartın işlənib hazırlanmasında marağı olan hüquqi və fiziki şəxslərin təklifləri.

**4.1.6** Dövlət standartlarının işlənib hazırlanması üçün beynəlxalq, regional və xarici ölkələrin standartları əsas kimi götürülərsə, bu zaman respublikada qüvvədə olan normativ və hüquqi sənədlərin tələbləri nəzərə alınmalıdır.

**4.1.7** Dövlət standartının layihəsini təqdim edən texniki komitə (layihəçi) 30 iş günü ərzində dövlət standartına dair izahedici vərəqəni hazırlamalıdır. İzahedici vərəqədə aşağıdakı məlumatlar əks olunmalıdır:

- dövlət standartlarının işlənib hazırlanmasının aktuallığının, texniki və iqtisadi zəruriliyinin əsaslandırılması;


©AZSTAND –Bütün hüquqlar qorunur

- standartlaşdırma obyektinin xüsusiyyətləri və ona dair tələblər;

- standartlaşdırma obyektinə dair texniki tənzimləmə və standartlaşdırma sahəsində texniki normativ hüquqi aktların təhlili;

- dövlət standartının layihəsinin texniki reqlamentlərlə və standartlaşdırma üzrə normativ sənədlərlə uyğunluğu;

- potensial istifadəçilər;

- dövlət standartının layihəsinin işlənməsi zamanı istifadə olunmuş elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələrinə dair sənədlərin surətləri;

- dövlət standartının ilkin layihəsini hazırlayan təsərrüfat subyektləri haqqında məlumatlar (adı, ünvanı və əlaqə məlumatlarları);

- dövlət standartı layihəsinin hazırlanmasının icra müddəti barədə məlumat.

**4.1.8** Texniki komitə (layihəçi) dövlət standartının layihəsinə dair izahedici vərəqəni milli standartlaşdırma qurumuna təqdim edir. Dövlət standartları beynəlxalq, regional, dövlətlərarası və xarici dövlət standartları (bundan sonra – beynəlxalq standart) əsasında işlənib hazırlandıqda, müraciətə autentikliyin müəyyən olunması məqsədilə istinad olunmuş beynəlxalq standartlar (kağız və elektron daşıyıcıda) əlavə edilir.

**4.1.9** Milli standartlaşdırma qurumu müraciətin daxil olduğu gündən 30 iş günü müddətində qərar qəbul edir.

**4.1.10** Milli standartlaşdırma qurumunun müsbət qərarı olduqda, dövlət standartının layihəsi işlənməsi məqsədilə standartlaşdırma üzrə müvafiq texniki komitəyə (layihəçiyə) göndərilir və dövlət standartlarının layihələrinin ictimai müzakirəsi üçün rəsmi internet səhifəsində yerləşdirilir.

**4.1.11** Dövlət standartları aşağıdakılar nəzərə alınmaqla işlənib hazırlanır:

- elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələri;

- standartlaşdırma obyektinə dair tələbləri müəyyənləşdirən beynəlxalq standartlar və digər normativ sənədlər;

- yeni növ malların (məhsulların, işlərin) proseslərin və xidmətlərin tətbiqindən əldə edilən təcrübə.

**4.1.12** Dövlət standartlarının işlənib hazırlanması prosesinə başlanılması və yekunlaşdırılması haqqında bildirişlər, həmçinin dövlət standartlarının layihələri milli standartlaşdırma qurumunun rəsmi internet saytında yerləşdirilməlidir.

**4.1.13** Milli standartlaşdırma qurumunun rəsmi internet saytında dövlət standart layihələrinin ictimai müzakirəsi 60 təqvim günü ərzində aparılır.

©AZSTAND –Bütün hüquqlar qorunur

**4.1.14** Müzakirələrin nəticəsi dövlət standartına dair sənədlər toplusuna daxil edilən protokolda əks olunur.

**4.1.15** Milli standartlaşdırma qurumu tərəfindən ictimai müzakirə zamanı alınan rəylər müvafiq texniki komitəyə təqdim edilir. Texniki komitə (layihəçi) rəylər nəzərə alınmaqla standartın son layihəsini razılaşdırma üçün aidiyyəti orqanlara göndərir.

**4.1.16** Razılaşdırma orqanları dövlət standartının layihəsinin daxil olduğu gündən 1 ay müddətində rəyini aidiyyəti texniki komitəyə (layihəçiyə) göndərməlidir.

**4.1.17** Standart layihəsinə dair qeyd olunan müddət ərzində aidiyyəti orqan tərəfindən münasibət bildirilmədikdə layihə razılaşdırılmış hesab olunur.

**4.1.18** Texniki komitə (layihəçi) aidiyyəti orqanlardan daxil olan rəylərə 15 iş günü ərzində baxır.

**4.1.19** Dövlət standartı layihəsi texniki komitədə konsensus əldə olunması yolu ilə qəbul olunur. Konsensus əldə olunmadıqda 10 iş günü ərzində maraqlı tərəflərin təşəbbüsü ilə dövlət standartı layihəsinin ikinci dəfə müzakirəsi keçirilir.

**4.1.20** Dövlət standartının layihəsi ilə bağlı razılaşmalar bitdikdən və nəzərə alınmamış rəylərlə əlaqədar rəy müəlliflərinə məlumat verildikdən sonra standartlaşdırma üzrə texniki komitə dövlət standartını konsensus əsasında qəbul edir və aşağıdakıları özündə ehtiva edən sənədlər toplusunu tərtib edərək milli standartlaşdırma qurumuna göndərir:

- kağız (3 nüsxə) və elektron daşıyıcılarda dövlət standartının layihəsini;
- izahedici vərəqəni;
- Texniki Komitənin protokolunu;
- dövlət standart layihəsinin razılaşdırılmasını təsdiq edən sənədləri;
- standart layihəsinin işlənib hazırlanmasında istifadə edilən elmi tədqiqatların, patentlərin, ixtiraların, sınaqların və ölçmələrin nəticələrinin surətlərini.

Azərbaycan Respublikasının qanunvericilik və ya digər normativ hüquqi aktları ilə nəzərdə tutulan hallar istisna olmaqla dövlət standartlarının qüvvədə olma müddəti məhdudlaşdırılmır.

### 4.2 İlkin dövlət standartları

**4.2.1** İlkin dövlət standartlarının layihələri standartlaşdırma subyektlərinin təşəbbüsü ilə hazırlanır.

**4.2.2** İlkin dövlət standartları innovasiyalı yeni mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu üçün hazırlanır.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**4.2.3** İlkin dövlət standartlarında göstərilən tələblər texniki reqlamentlərin və standartların tələblərinə zidd olmamalıdır.

**4.2.4** İlkin dövlət standartları elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri və innovasiyalı yeni növ malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun tətbiqi ilə əldə olunan praktik təcrübələrin əsasında hazırlanır.

**4.2.5** İlkin dövlət standartları 2 (iki) il müddətinədək qəbul olunur və qüvvədən düşmə müddətinə ən azı 3 (üç) ay qalmış aidiyyəti standartlaşdırma üzrə texniki komitə onun dövlət standartı kimi qəbulu məqsədi ilə yoxlanılmasını və onun tətbiqinin qiymətləndirilməsini təşkil edir.

**4.2.6** İlkin dövlət standartlarının dövlət standartı kimi qəbul olunması, vaxtının uzadılması və ya qüvvədən düşməsi haqqında təklif aidiyyati standartlaşdırma üzrə texniki komitənin iclasında konsensus əsasında qəbul olunur və qərarın qəbul olunması üçün milli standartlaşdırma qurumuna təqdim edilir.

**4.2.7** Milli standartlaşdırma qurumu tərəfindən ilkin dövlət standartının dövlət standartı kimi qəbul edilməsi barədə qərar qəbul edildikdə bu standartın 6-10 bölmələrinə uyğun iş aparılır.

**4.2.8** İlkin dövlət standartlarının qüvvədən düşməsi barədə qərar qəbul edildikdə 5 iş günü ərzində milli standartlaşdılrma qurumu tərəfindən aidiyyəti texniki komitəyə (layihəçiyə) məlumat verilir.

## 5 DÖVLƏT STANDARTI LAYİHƏSİNİN EKSPERTİZASI

**5.1** Dövlət standartı layihəsinin ekspertizası milli standartlaşdırma qurumu tərəfindən həyata keçirilir.

**5.2** Bütün maraqlı tərəflərin layihə üzrə razılığı əldə edildikdən və nəzərə alınmamış rəylərlə bağlı rəy müəlliflərinə məlumat verildikdən sonra aidiyyəti texniki komitə (layihəçi) dövlət standartını ekspertiza edilməsi üçün milli standartlaşdırma qurumuna təqdim edir.

**5.3** Dövlət standartı və ilkin dövlət standartı layihəsinin ekspertizasının məqsədi aşağıdakılardır:

- Azərbaycan Respublikası qanunvericiliyinin və texniki reqlamentlərin tələblərinə uyğunluğun müəyyən edilməsi;

©AZSTAND –Bütün hüquqlar qorunur 

- bu standartın 4.1.20-ci bəndinə uyğun olaraq, standarta dair sənədlər toplusunun tam olduğunun yoxlanılması;

- qüvvədə olan və ekspertiza üçün təqdim edilmiş standart layihəsinin tələblərinin təkrarlanmaması;

- bu standartın 4.1.17-ci bəndinə uyğun olaraq, dövlət standartı və ilkin dövlət standartı layihəsinin razılaşdırılmasının tamlığı barədə yekun rəylərin təhlili;

- standartlaşdırma obyektinə dair tələbləri özündə əks etdirən qabaqcıl beynəlxalq standartın tələblərinə uyğunluğun müəyyən edilməsi.

**5.4** Milli standartlaşdırma qurumu 7 iş günü ərzində təqdim edilmiş sənədlərin bu standartın 4.1.20-ci bəndində göstərilən sənədlər toplusuna uyğun təqdim edildiyini yoxlayır, sənədlər toplusu tam olmadıqda onun tamamlanması üçün geri qaytarır.

**5.5** Dövlət standartı və ilkin dövlət standartı layihəsinin (yekun rəylə birgə) ekspertizası milli standartlaşdırma qurumuna daxil olduğu gündən 30 iş günü müddətində aparılır.

## 6 DÖVLƏT STANDARTLARININ (O CÜMLƏDƏN İLKİN DÖVLƏT STANDARTLARININ) QƏBUL EDİLMƏSİ, DÖVLƏT REYESTRİNƏ VƏ FONDUNA DAXİL EDİLMƏSİ

**6.1** Dövlət standartlarının və ilkin dövlət standartlarının ekspertizasının rəyi müsbət olduqda milli standatlaşdırma qurumu dövlət standartına və ilkin dövlət standartına dair qərar qəbul edərək aşağıdakı məlumatlarla birlikdə 2 iş günü ərzində Dövlət Reyestrinə daxil edir:

- qeydiyyat tarixi və nömrəsi;
- standartın işarəsi;
- standartın adı;
- standartın beynəlxalq təsnifat qrupu (beynəlxalq standartlar kodu-BSK);
- təsdiqi haqqında qərarın tarixi və nömrəsi;
- ilkin dövlət standartını və dövlət standartını hazırlayan Texniki Komitənin (layihəçinin) adı;
- tətbiq olunma tarixi.

**6.2** Standartların işarələnməsi milli standartlaşdırma qurumu tərəfindən aşağıdakı formada aparılır:

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**6.2.1** Dövlət standartının işarələnməsi "AZS" indeksi, ara məsafəsi (probel) ilə ayrılmış qeydiyyat üzrə sıra nömrəsi, iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəm əsasında həyata keçirilir.

NÜMUNƏ:

AZS XXXX:2000.

**6.2.2** İlkin dövlət standartının işarələnməsi "AZS İS" indeksi, ara məsafəsi (probel) ilə ayrılmış qeydiyyat üzrə sıra nömrəsi, iki nöqtə ilə ayrılan ilkin dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəm əsasında həyata keçirilir.

NÜMUNƏ:

AZS IS XXXX:2000.

**6.2.3** Beynəlxalq standartla eyniləşdirilmiş (identik olan) dövlət standartının işarələnməsi “AZS” indeksindən, ara məsafəsi (probel) ilə ayrılmış beynəlxalq standartın orijinalının rəsmi dilində işarə indeksindən, nömrəsindən (qəbul olunma ili qeyd olunmadan) və iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq olunma ilindən ibarətdir.

NÜMUNƏ:

AZS ISO XXXX-X:2000, AZS EN XXXX-X:2000, AZS API XXXX-X:2000, AZS ASTM XXXX-X:2000, AZS ГОСТ XXXX-X:2000.

Dövlət standartının mətnində onun identik (IDT) olduğu standartın indeksi, nömrəsi, qəbul olunduğu ili və redaksiyası azərbaycan və ingilis dillərində əks olunur.

NÜMUNƏ:

Bu standart Beynəlxalq Standart IEC 61646, nəşr 2.0 (2008-05) ilə eynidir (IDT).

This standard is identical (IDT) to the International Standard IEC 61646, edition 2.0 (2008-05).

**6.2.4** Beynəlxalq standart əsasında işlənib hazırlanan dövlət standartının işarələnməsi "AZS" indeksindən, ara məsafəsi (probel) ilə ayrılmış qeydiyyat üzrə sıra nömrəsindən, iki nöqtə ilə ayrılan dövlət standartının təsdiq edildiyi ili göstərən dörd rəqəmdən, mötərizədə qeyd olunmuş beynəlxalq standartın orijinalının rəsmi dilində indeksi və iki nöqtə ilə ayrılan beynəlxalq standartın qəbul edildiyi ili göstərən dörd rəqəmdən ibarətdir.

NÜMUNƏ:

AZS 899:2019 (ISO 7844-1:2017).

Dövlət standartının müqəddiməsində onun hansı standart əsasında (MOD) işlənib hazırlandığı beynəlxalq standartın indeksi, nömrəsi, qəbul olma ili və redaksiyası azərbaycan və ingilis dillərində əks olunur.

©AZSTAND –Bütün hüquqlar qorunur

NÜMUNƏ:

Bu standart IEC 61646, nəşr 2.0 (2008-05) Beynəlxalq Standartı əsasında işlənilmişdir (NEQ).

This standard is modificated (MOD) to the International Standard IEC 61646, edition 2.0 (2008-05).

**6.3** Dövlət reyestrinə daxil edilmiş dövlət standartı və ilkin dövlət standartı standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

**6.4** Dövlət reyestrinə və standartlaşdırma üzrə dövlət fonduna daxil edilmiş dövlət standartı və ilkin dövlət standartı barədə məlumat milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsində yerləşdirilir.

## 7 DÖVLƏT STANDARTININ DÖVRÜ YOXLANMASI

**7.1** Dövlət standartlarının dövrü yoxlanması dövlət standartlarının təkmilləşdirilməsinə və ya ləğv edilməsinə zərurətin olmasının, onların aktuallığının və tətbiq edilməsinin effektivliyinin müəyyən edilməsi məqsədilə həyata keçirilir. Dövlət standartlarının yoxlanmasına aşağıdakılar daxildir:

- dövlət standartlarının elmi-texniki səviyyəsinin təhlili;
- dövlət standartlarının qüvvədə olan texniki reqlamentlərə uyğunluğunun təhlili;
- iqtisadiyyatın müxtəlif sahələrinin standartlaşdırma üzrə normativ sənədlərlə təmin olunmasının təhlili;
- "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanunu [1] ilə müəyyən olunmuş standartlaşdırmanın məqsədləri baxımından dövlət standartında dəyişikliklər edilməsi, ləğv edilməsi və ya yeni dövlət standatının qəbulu zərurətinin müəyyən edilməsi.

**7.2** Standartlaşdırma subyektləri dövlət standartlarının dövrü yoxlanmasını ildə bir dəfə həyata keçirməlidir.

**7.3** Dövlət standartlarının dövrü yoxlanması nəticələri ilə əlaqədar əsaslandırılmış təkliflər müvafiq tədbirlər görülməsi üçün milli standartlaşdırma qurumuna göndərilir.

**7.4** Milli standartlaşdırma qurumu dövlət standartlarının dövrü yoxlanmasının nəticələri haqqında hesabata (təkliflərə) daxil olduğu gündən 30 iş günü ərzində baxır və qərar qəbul edir.


©AZSTAND –Bütün hüquqlar qorunur

**7.5** Təkliflər əsaslı hesab edildiyi halda, milli standartlaşdırma qurumu standartlaşdırma üzrə normativ sənəddə dəyişikliklər edilməsi, ləğv edilməsi və ya yeni standartlaşdırma üzrə normativ sənədin qəbulu üçün müvafiq tədbirlər görür.

**7.6** Milli standartlaşdırma qurumu tərəfindən yoxlamanın nəticələri barədə qəbul edilmiş qərar aidiyyəti üzrə standartlaşdırmanın subyektlərinə 5 iş günü ərzində göndərilir.

**7.7** Milli standartlaşdırma qurumunun aparılan yoxlamalara dair qəbul etdiyi qərar milli standartlaşdırma proqramının, texniki komitələrin iş planlarının tərtibi, onlarda dəyişikliklərin və əlavələrin edilməsi zamanı nəzərə alınır.

## 8 DÖVLƏT STANDARTLARINA DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

**8.1** Dövlət standartlarına dəyişikliklər standartlaşdırma subyektlərinin təşəbbüsü ilə aşağıdakı hallarda aparılır:

- ayrı-ayrı tələblərin dəyişməsi, əlavə edilməsi və ya çıxarılması;
- yeni tələblərin daxil edilməsi və yeni məhsulun qüvvədə olan standartla, texniki şərtlərlə hazırlanmış məhsullar ilə qarşılıqlı əvəz olunması;
- beynəlxalq standartlarla harmonizasiyasının aparılması;
- standartlaşdırma subyektləri tərəfindən dövlət standartlarının dövrü yoxlanması zamanı aşkar edilmiş çatışmazlıqlar.

Dövlət standartlarına dəyişiklik təklif edilən dəyişikliyin həcmi standart mətninin 20%-ni keçmədikdə işlənilir.

**8.2** Yalnız redaktə (linqvistik) və/və ya istinad xarakterli dəyişiklik müstəqil sənəd şəklində işlənilmir və standartın nəşri zamanı milli standartlaşdırma qurumu tərəfindən nəzərə alınır.

**8.3** Dövlət standartlarına dəyişikliklərin (texniki xarakterli dəyişikliklər istisna olmaqla) razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi bu standartın 4-cü bölməsində müəyyən edilmiş prosedura (müddətlər istisna olmaqla) uyğun olaraq həyata keçirilir.

©AZSTAND –Bütün hüquqlar qorunur

**8.4** Dövlət standartına edilən dəyişiklik layihəsinin açıq müzakirə müddəti dəyişikliyin xüsusiyyətlərindən asılı olaraq layihəçi tərəfindən müəyyən edilir. Bu müddət 1 aydan az olmamalıdır.

**8.5** Standarta daxil edilən hər bir dəyişikliyə milli standartlaşdırma qurumu tərəfindən sıra nömrəsi verilir.

**8.6** Standarta dəyişiklik onun qəbulundan sonra müvafiq təşkilati-texniki tədbirlərin həyata keçirilməsi üçün zəruri olan vaxt nəzərə alınmaqla, milli standartlaşdırma qurumu tərəfindən 1 aydan tez olmayaraq qüvvəyə minir.

**8.7** Dövlət standartına edilmiş dəyişikliyin surəti çıxarılaraq standartın birinci səhifəsinə yapışdırılır (və ya digər üsulla etibarlı bərkidilir).

## 9 DÖVLƏT STANDARTLARININ LƏĞV EDİLMƏSİ QAYDALARI

**9.1** Qüvvədə olan dövlət standartı aşağıdakı hallarda ləğv edilir:

a) standartın əvəzinə yeni dövlət standartı təsdiq və tətbiq edildikdə, o cümlədən standartın müddəaları digər standarta daxil edildikdə;

b) müvafiq sahədə milli standartlaşdırma üzrə işlərin istiqamətləri dəyişdirildiyinə görə standartın öz aktuallığını itirdiyi digər hallarda;

c) qüvvəyə minən texniki reqlamentlərin tələblərinə zidd olduqda.

**9.2** Texniki komitənin (TK) katibliyi standartın ləğvi barədə daxil olmuş təklifin TK-nın üzvləri tərəfindən baxılmasını və milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsində yerləşdirmək üçün müvafiq bildirişin göndərilməsi yolu ilə standartın ləğvi barədə daxil olmuş təklifin açıq müzakirəsini təşkil edir. Dövlət standartının ləğvi barədə təklifin açıq müzakirəsinin müddəti 60 təqvim günündən az olmamalıdır.

**9.3** Dövlət standartının ləğvi ondan istifadə edən standartlaşdırma subyektlərinin maraqlarına ziddirsə, subyekt ləğvin məqsədəuyğun olmaması barədə TK katibliyinə məktub göndərir.

**9.4** Standartın ləğvi barədə təklifə bütün standartlaşdırma subyektlərinin razılığı olduqda və standartın ləğvinin məqsədəuyğun olmadığı barədə digər maraqlı tərəflərin məktubu olmadıqda TK katibliyi standartın ləğvinin məqsədəuyğunluğu barədə müvafiq

 ©AZSTAND –Bütün hüquqlar qorunur

rəy hazırlayır və aşağıda göstərilən sənədlərin bir nüsxəsi ilə birlikdə standartlaşdırma üzrə milli standartlaşdırma qurumuna göndərir:

- təklif TK-nın katibliyi tərəfindən verilmədikdə standartın ləğvi barədə əsaslandırılmış məktub;
- ləğv barədə təklifə baxılması üzrə TK iclasının protokolu (əgər keçirilibsə) və ya standartın ləğvi ilə bağlı təklifin baxılmasında maraqlı olan TK üzvlərinin razılığını təsdiq edən digər sənədlər;
- standartın razılaşdırıldığı və TK-nın üzvü olmayan dövlət orqanlarının standartın ləğvinin mümkünlüyü ilə razılığını təsdiq edən sənədlərin əsli.

**9.5** Milli standartlaşdırma qurumu dövlət standartının ləğvinə dair sənədləri aldıqdan sonra 5 iş günü müddətində onun ləğvinin məqsədəuyğunluğunu qiymətləndirir. Standartın ləğvi haqqında təkliflə razı olduğu təqdirdə Milli standartlaşdırma qurumu müvafiq qərar qəbul edir, bu haqda məlumatı rəsmi internet səhifəsində yerləşdirir.

**9.6** Standartlaşdırma obyekti fəaliyyət göstərən heç bir TK-ya təhkim olunmamışdırsa, standartın ləğvi barədə təklifin açıq müzakirəsi üzrə TK-nın funksiyaları bilavasitə milli standartlaşdırma qurumu tərəfindən yerinə yetirilir.

## 10 DÖVLƏT STANDARLARTININ NƏŞRİ

**10.1** Dövlət standartları və ilkin dövlət standartlarının rəsmləşdirilməsi AZS 1.5 dövlət standartına uyğun olaraq həyata keçirilir.

**10.2** Dövlət standartları və ilkin dövlət standartları milli standartlaşdırma qurumu tərəfindən 2 iş günü ərzində kağız və elektron daşıyıcılarda standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

©AZSTAND –Bütün hüquqlar qorunur

İCS 01.120 Qrup T 50

**Əsas sözlər:** dövlət standartları, ilkin dövlət standartları, dövlət standartlarının hazırlanması və razılaşdırılması, dövlət standartının yoxlanılması, dövlət standartlarına dəyişikliklərin edilməsi, dövlət standartlarının ləğv edilməsi qaydaları

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
Publik hüquqi şəxs

**AZS 1.2:2022**

**Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi**
**Azərbaycan Respublikasının dövlət standartlarının işlənmə qaydaları.**

©AZSTAND –Bütün hüquqlar qorunur 